# Yeniyetmələrdə müşahidə olunan davranış qüsurları

**Gülnarə Həmzəbəyovna Əlixanova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi,*
**E-mail:** gülnare.alixanova @mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. Q.N. Qəhrəmanova,
psixol.ü.f.d., dos. S.N. Heydərova

**Açar sözlər:** davranış qaydaları, duyğular, uyğunsuz davranış, düşünülmüş, situativ, keçici, risk, davranış pozuntusu

**Ключевые слова:** правила поведения, эмоции, ненадлежащее поведение, преднамеренное, ситуативное, преходящее, риск, поведенческое расстройство

**Key words:** rules of conduct, emotions, inappropriate behavior, deliberate, situational, transient, risk, behavioral disorder

Bəşəriyyətin həm ümummilli, həm də dünya miqyasında min illər boyu qoruyub saxladığı əxlaqı, mədəni dəyərlər, meyllər, adət-ənənələr cəmiyyətdə çox mühüm əhəmiyyət kəsb edir. Tarix boyu həyatımızda hər kəs tərəfindən qəbul edilən davranış qaydaları və normaları mövcud olmuşdur. Müasir dövrdə isə uşaq və yeniyetmələrdə müxtəlif xarakterli davranış qüsurları problemi geniş yayılmış və həllini gözləyən aktual problemlərdən birinə çevrilmişdir.

Konkret elmi tədqiqatların nəticələrinə görə, məktəb yaşlı uşaq və yeniyetmələrin 12% - 25%-də müxtəlif mənşəli davranış qüsurlarına təsadüf olunur. Bu göstərici qızlara (15%) nəzərən oğlanlarda (85%) dəfələrlə yüksəkdir. Dərsdən yayınan, evdən qaçan, dilənçilik edən, oğurluq və qarətlər törədən, siqaret çəkən, alkoqollu içkilər qəbul edən, aqressiv, destruktiv davranışlı uşaq və yeniyetmələr müasir dövrdə risk qrupuna aid edilir (1, s. 48).

Güzəran psixologiyasında davranış qüsurları "ağılsız hərəkətlər" kimi qiymətləndirilir. Çünki psixoloji gərginlik vəziyyətində bəzi insanların davranışında, rəftar və münasibətlərində psixatrik mənşəli xəstəliklərin simptomları müşahidə olunur. Xüsusilə böhran mərhələsində olan yeniyetməlikdə belə hallar daha çox qeydə alınır. Psixiatriyada bu hal şüurun və şəxsiyyətin pozulması kimi izah edilir. Sosial baxımdan zərərli, normadan yayınmış, qaydaları pozmuş kimi görünən davranışın fərd tərəfindən daxili qiymətləndirilməsi isə çox zaman fərqli olur.

İnsanları belə hərəkətlərə sövq edən bir sıra səbəblər var. Belə davranış məhz hissləri, emosiyaları, bir sözlə, "daxili –Mən"i razı salmaq üçün qurulur. Ona görə də tədqiqatçıların gəldikləri nəticələrə görə, yalnız duyğular davranışın daimi, ayrılmaz yoldaşıdır, onunla birgə yaşayır. Davranışın "şüursuzluq" adlandırdığımız instinktlər, hisslər və tələbatlarla qurulan səviyyəsində digər idrak proseslərinin iştirakı zəifləyir. Hər şey arxetipik şüurun, stereotip davranışın ixtiyarına verilir. Məhz belə davranışda pozulmuş və delikvent hərəkətlər aydınlığı ilə üzə çıxır (2, s. 98).

Müəyyən bir səbəbdən psixoloji narahatlıq keçirən yeniyetmələrdə özünü göstərən müxtəlif reaksiyalar əsasən iki qrupa bölünür: Daxilə yönəlmiş uyğunsuz davranışlar və xaricə yönəlmiş uyğunsuz davranışlar.

1. Daxilə yönəlmiş uyğunsuz davranış göstərən yeniyetmələr əsasən çox qəmgin, qorxmuş, günahkarlıq duyğusu içində bəzi təzyiqlərə məruz qalmış, özlərinə inam hissini itirmiş

və ətrafdakı insanlar və mühitlə münasibətləri qopmuşdur.

2. Xaricə yönəlmiş uyğunsuz davranışlar: Bir yeniyetmə tez-tez yalan danışırsa, ya ata-anasının ondan gözlədiklərini doğrultmaqda çətinlik çəkir, ya da cəzadan qorxur. Yeniyetmənin istəkləri və narahatlıqları rahat dinlənilsə və həll yollarını tapmağa şərait yaradılsa duyğularını gizlətmək üçün yalana ehtiyac qalmaz. Oğurluq isə psixoloji və maddi çatışmazlıq nəticəsində ortaya çıxan bir davranışdır və şəxsi həyatdan qaynaqlanır. Gənclər dostları ilə sırf əyləncəyə görə də oğurluq edə bilər. Birinci oğurluğun ağır cəzalandırılması digər oğurluqların davamlılığına gətirib çıxarır. Aqressiv gənc isə psixoloji problemləri səbəbindən yaşıdları və ətrafı ilə normal münasibətlər qura bilmir. Neqativ davranışlar uşaqdakı yetərsizlik, sayılmama və dəyər verilməmə hisslərindən ortaya çıxır. Bu səbəbdən müəllim, ata-ana ona dəyər verdiyini fürsət olduqca hiss etdirməlidir.

Uşaq və yeniyetmələrdə müşahidə olunan davranış qüsurlarını eyni zamanda xarakterik (qeyri-patoloji) və patoloji olmaqla da iki əsas qrupa ayırmaq olar. Xarakterik davranış pozğunluqları keçici, situativ cəhətdən şərtlənmiş davranış dəyişkənliyidir və o, daha çox müəyyən mikromühitdə (məsələn, yalnız evdə, yalnız məktəbdə, yalnız küçədə) təzahür edir (3, s. 105).

Patoloji davranış qüsurları isə uşaq və yeniyetmənin həyatının bütün sahələrində total məzmunlu, psixogen mənşəli davranış reaksiyaları kimi əks olunur, müxtəlif davranış pozğunluqları şəklində təzahür edir, daha çox nevrotik, kliniki xarakterli simptomları ilə fərqlənir. Patoloji davranış qüsurlarına nümayişkəranə üsyankarlıq, hiperaktivlik, autistik xarakterli pozğunluqları misal göstərmək olar. Bu davranış qüsurlarının genezisi psixi xəstəliklərlə, psixi və əqli inkişafda geridəqalma, autizm, mərkəzi sinir sisteminin üzvi zədələnməsi, hiperaktivliklə diqqətin çatışmazlığı sindromu və sairə ilə əlaqədardır, tibbi və psixoterapevtik korreksiya tələb edir. Uşaq və yeniyetmələrdə müşahidə olunan xarakterik davranış qüsurlarının profilaktikası və korreksiyasında anlatma, təəccübləndirmə, məyus etmə, müsbət emosiyaların canlandırılması, yarış və sairə kimi psixoloji xarakterli stimullaşdırıcı metodlardan istifadə etmək səmərəli nəticə verə bilər.

Addiktiv davranışlı gənclərdə şəxsi avtonomiya ilə bağlı motivasiya üstünlük təşkil edir və real həyatda onların çoxunda passiv qiyam, az bir qismində emansipasiya reaksiyaları, bir qismində isə öz "mən"ini müdafiə motivasiyası daha yüksək səviyyədə ifadə olunur. Yeniyetmə və gənclərdə addiktiv davranışın təzahürlərini aradan qaldırmaq üçün onlarda sosial immuniteti inkişaf etdirmək, sosial davranış mədəniyyəti aşılamaq, həmyaşıdlar qrupunda pozitiv sosial status qazanmaq üçün öz yerini tapmaq motivləri formalaşdırılmalıdır.

Yeniyetmə və gənclərdə yenidəntərbiyə metodları vasitəsilə həyat strategiyasını düzgün anlamaq və düşüncəli məqsədlər əsasında kreativ nəticələrə nail olmaq qabiliyyətləri, konstruktiv dünyagörüşü və xarakterin əxlaqi tərbiyəlilik səviyyəsinin mərhələli şəkildə yüksəldilməsinə çalışmaq lazımdır. Uşaqlarda davranış qüsurları nə qədər tez aşkar olunarsa və ya qabaqlayıcı-profilaktik tədbirlər vasitəsilə qarşısı vaxtında alınarsa, onları daha tez və səmərəli şəkildə aradan qaldırmaq, daha ciddi patoloji pozğunluq halına keçməsi riskini azaltmaq olar. Valideynlər, məktəb psixoloqları, məktəb həkimi, sosial pedaqoqlar və sinif rəhbəri qarşısında duran ən mühüm və təxirə salınmaz vəzifələrdən biri məhz davranış qüsurları olan uşaq və yeniyetmələrlə aparılacaq psixoloji profilaktika və korreksiya işlərinin sistemli şəkildə, konkret proqramlar əsasında həyata keçirilməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə uşaq və yeniyetmələrin daxil olduğu ailələrdə ailədaxili münasibətləri sağlamlaşdırmaq məqsədilə maarifləndirici tədbirlər həyata keçirilməli, belə uşaq və yeniyetmələrlə fərdi və qrup şəklində aparılan iş formalarına istinad edilməlidir (4, s. 201).

Bununla belə davranış pozuntusunun əsas xüsusiyyəti təkrarlayıcı və qalıcı davranış modelləridir ki, burada başqalarının haqları yaxud şəxsin yaşına uyğun sosial normaları pozulur. Bu davranışlar dörd əsas qrupa bölünürlər:

1. İnsanlara və heyvanlara qarşı hücum
2. Əşyaları qırıb dağıtmaq
3. Oğurluq və xuliqanlıq
4. Qaydaları pozmaq

Bu davranış pozuntusu sosial, məktəb və ya iş ilə bağlı funksionallıqda klinik olaraq müəyyən zəifliyə gətirib çıxardır. Tez-tez başqalarına qarşı kobudluq edir, qorxudur, tez-tez dalaşmaq, başqalarını ağır yaralayacaq vasitələrdən istifadə edir (taxta, daş, qırıq şüşə, bıçaq, odlu silah), heyvanlara qarşı kobud davranma, insanların gözü önündə nə isə oğurlamaq və ya cinayət törətmək (hücüm edib soyğunçuluq etmək, məcbur pulunu almaq, kiməsə qarşı cinsi məzmunlu davranışlar etmək, ağır zərər vermə məqsədi ilə qəsdən yanğın törətmək, başqalarının əşyalarına bilə-bilə zərər vermək, başqasının evinə və maşınına zorla girmək). Davranış pozuntusu diaqnozu qoymaq üçün yuxarıda sadalanan kriteriyalardan ən azı üçünün son 6 ayda davam etməsi ilə özünü göstərməlidir.

Peşmançılıq ya günahkarlıq hiss etməmə: Səhv bir hərəkət etdiyi zaman özünü pis his etmir və ya günahkarlıq keçirtmir. Həmin şəxs gördüyü işin mənfi nəticələri ilə bağlı olaraq narahat olmur. Məsələn: insan birini yaraladıqdan sonra peşmançılıq hiss etmir və ya qaydaları pozduğu zaman nəticələr onu maraqlandırmır (5, s. 231).

Duyğusuzluq – empatiya əksikliyi: Başqaların duyğusu onu maraqlandırmır, soyuq və heç nəyə fikir verməyən biri kimi insanda təəssürat yaradır. Öz əməlləri ilə başqalarına böyük ölçüdə pislik etsə də, həmin davranışların başqaları üzərində təsirindən çox öz üzərindəki təsirindən maraqlanır. Səmimilikdən uzaq və hər zaman duyğularını öz mənfəəti üçün istifadə edir.

Bir şeyi etmənin narahatçılığını keçirtməmə: Məktəbdə, iş yerində ya da hansısa başqa bir yerdə yaxşı bir iş ortaya çıxara bilmir və ya yaratdığı problemlə maraqlanmır. Ona qarşı gözləntilər çox olsa da bir işi yaxşı görmək üçün cəhd göstərmir və işinin nəticəsi yaxşı olmadıqda başqalarını günahlandırır.

Yeniyetmənin müxtəlif cür yan təsirlərə, içkiyə, siqaret çəkməyə, üzərində silah gəzdirmək kimi hallara meyilənməsi düşünmədən edilən hərəkətlərdir. Belə hərəkətlərin qarşısının vaxtında alınmadığı təqdirdə isə istənilən hadisə baş verə bilər. Ailənin uşaq üzərində nəzarəti, valideynlərin övladlarına diqqət ayırması kimi hallar uşaqları cinayətlərdən çəkindirir. Müəyyən bir ictimai nəzarət mexanizmi olan ailə və qohumların nəzarəti də öz müsbət rolunu oynayır (6, s. 301).

Valideynlərarası gərginliyin uşaqda yaratdığı davranış qüsurları çox aktual mövzudur. Klassik davranış pozuntusu valideynlərarası gərginliklə bağlıdır Məsələn, valideynlər arasında davranış birbaşa uşağa təsir etmir, əgər ana və ya ata öz problemində uşaqdan istifadə edirsə, bu zaman təsir öz gücünü göstərir. Bu zaman uşaq öz uşaqlığını yaşaya bilmir. Lev Tolstoya görə: "İnsan ömrünün sonuna qədər bütün yaş mərhələlərini (uşaqlıq, yeniyetməlik, gənclik, qocalıq) yaşamamış ölmür". Hər yaşın öz əlaməti və bacarığı var ki, onu yaşamaq həmin yaşda gözəldir. Ailədə "hakim" rolunda çıxış edən uşaq məcburdur ki, özünü böyük kimi aparsın, ancaq yeniyetməlik vaxtında o, özünü uşaq kimi aparmağa başlayacaq və valideynləri üçün başqa bir problem yaranacaqdır. Klassik davranış qüsurları faktoru özünü ən çox bu hallarda göstərir, məsələn; uşağın harasısa ağrıyır, uşağı həkimə aparırlar, ancaq müəyyən olur ki, uşaqda heç bir problem yoxdur. Uşaq bu ağrısı vasitəsilə ana və atası arasındakı münaqi-

şəni şüuraltı olaraq idarə edir.

Valideynlər övladları ilə davranışlarında psixoloqlarla məsləhətləşməlidirlər. Düşünmək lazımdır ki, hazırda uşaqların intellektləri, təfəkkür tərzləri valideynlərin intellektindən, düşüncələrindən bir qədər fərqlidir. Bəzi valideynlər bunlardan xəbərsiz olduqlarına görə, öz köhnə qayda-qanunlarını ailədə, uşaqlar üzərində tətbiq edirlər. O da öz növbəsində valideyn-övlad münasibətlərinin gərginləşməsi ilə nəticələnir. Valideynlərə aşağıdakı beş metodu davranış addımı kimi izləmək məsləhət görülür:

1. Uşağınızın qəbul edilməz davranış hallarını diqqətlə müşahidə edin.
2. Uşağınızın nə üçün bu cür davrandığını başa düşməyə çalışın.
3. Uşağınızın zəruri ehtiyaclarını və onun inkişaf səviyyəsini nəzərə alan real məqsəd hazırlayın.
4. Həmişə yaxşı davranışı qiymətləndirməklə və pis davranışın heç bir məmnunluq, diqqət, mükafat göstərməməsini əmin etmək yolu ilə məqsədə doğru kiçik addımlarla irəliləyin.
5. Uşağın davranışı yaxşılaşandan sonra onunla daha təbii yolla rəftar edin.

Bu məqsədlə ailənin, təhsil müəssisələrinin, inzibati orqanların, uşaq və gənclərlə işləyən dövlət təşkilatlarının sistemli əlaqəsini yaratmaq və bu problemə vaxtında müdaxilə etməklə daha yaxşı nəticələr əldə etmək mümkündür.

**Məqalənin aktuallığı.** Yeniyetmələrdə davranış pozuntularının psixokorreksiyası və profilaktikasının düzgün iş formalarının və istiqamətlərinin araşdırılıb seçilməsi məqalənin aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik şəxsiyyətlərarası münasibətlərin düzgün inkişaf etdirilməsinin bir məqsəd kimi qarşıya qoyulması amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilər.

## Ədəbiyyat


1. Bayramov Ə.S. Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi. Bakı, 1963, 62 s.
2. Əliyev B.H. Pedaqoji psixologiya: Dərs vəsaiti. Bakı, 2011, 256 s.
3. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004, 338 s.
4. Андриенко, Е.В. Социальная психология: М.: ИЦ Академия, 2012, 264 с.
5. Ильин Е.П. Психология общения и межличностных отношений. СПб.: Питер, 2013, 576 с.
6. Ньюкомб Н. Развитие личности ребёнка. – СПб.: Питер, 2002, 640 с.


**Г. Г. Алиханова**

## Дефекты поведения, наблюдаемые у подростков

## Резюме

В духовном мире подростка есть некоторые опасения. Наряду с удовольствием от одиночества, желанием присоединиться к группе, конфликтами со взрослыми, но, тем не менее, их принятием, тревогой и отчаянием, а также большим энтузиазмом в отно-

шении будущего являются главными заботами этого периода. Каждое поведенческое расстройство имеет абсолютную причину.

**G.H. Alikhanova**

## Behavioral disorders observed in adolescents

## Summary

There are some concerns in the spiritual world of a teenager. Along with the pleasure of loneliness, the desire to join a group, the conflict with adults, but nevertheless the acceptance of them, anxiety and despair, as well as the great enthusiasm for the future are the main concerns of this period. Every behavioral disorder has an absolute cause.

**Redaksiyaya daxil olub:** 11.09.2020